

*ƏZİZ KƏRİM*
*Prezident təqaüdçüsü*

## *Çətinə düşsən*

Çətinə düşsən gələrəm özüm,
İnan ki, iki daş arasında.
Hər bir əzaba məndə var dözüm,
Hifz olun gözlə qaş arasında.

Saf məhəbbətin dolub qəlbimə,
Səni anıram həm gecə, gündüz.
Get! İnadla get, yolundan dönmə
Sənsiz doğmasın bəxtimə ulduz.

Qaranlıq gecə, çıraq ol mənə,
Şölə səpginən gedən yoluma.
Kim istəyir ki, yolundan dönə?
Gəl, güc qüvvət ol, mənim qoluma!

Sənlə bağlıyam bu doğma yurda
Dözərik gözlə, qaş arasında.
Böyük bir vuruş gedəcək burda
Sevən ürəklə baş arasında!

## *Qayıtmışam*

Sevgimizə inanmışam,
Oda, atəşə yanmışam.
Bir zindanda əsir idim
Sənə görə sağ qalmışam
Dön bəri gəl, qayıtmışam.

Şallaq dəyib kürəyimə,
Balta enib dirəyimə.
Yanğın düşüb ürəyimə
Döyüşmüşəm, vuruşmuşam
Dön bəri gəl, qayıtmışam.

Qanım axıb dabanıma
Ümid qalıb son anıma.
And içmişəm imanıma
İnadımdan dönməmişəm
Dön bəri gəl, qayıtmışam.

## *Gəlmişəm*

Necə başladım bu yola, düzü
Özüm özümdən xəbərsiz oldum.
Unutdum tamam gecə, gündüzü,
Nə bir usandım, nə bir yoruldum.

Hər addımbaşı səni düşündüm,
Ömrüm əridi yolların üstə.
Şaxtaya düşdüm, dondum, üşüdüm
Sən məni aldın qolların üstə.

Əzablarım heç gəlmir vecinə,
Haqq da edirsən, haqqın var buna.
Sən inanmırsan sevgi gücünə
Sevirəm, necə qoyum boynuna?!

Bu yoldan necə dönüm, mən necə
Eşq şərbətini içib gəlmişəm.
Çathaçatdayam sönüm mən necə?
Necə tufandan keçib gəlmişəm.

## *İki dost*

Dənizlə bulud bir gecəyarı
Üz-üzə gəlib pıçıldaşdılar:
-Çox xoş gəlmisən can ixtiyarım,
Salamdan sonra qucaqlaşdılar.

-Sənsiz olmasın mənim bir günüm,
Yoxsa bu günəş yandırar məni.
Çaxan şimşəyin - toyum, düyünüm
Sənə açmışam mavi sinəmi.

-Dostum, heç zaman eləmə sən qəm,
Qoymaram damlan itsin havayı.
Sənin payındır gözümdəki nəm
Damcılayaram mən bütün yayı.

-Qala bilmərəm, ay bulud sənsiz,
İnan itərəm səssiz-səmirsiz.
Söhbətdən sonra coşdu, kükrədi
Gur dalğalarla çırpındı dəniz!

## *İNAN*

Bu bahar çağı çıxdım dağlara
Güllər, çiçəklər ənbər qoxuyur.
Bülbüllər əsla verməyir ara,
Hamsı gur səslə nəğmə oxuyur.

Gül, çiçəklərdə sənin ətrin var
Gülüm, gəl yaxın, gəlibdir bahar.
Ətrin dolub ki mənim qəlbimə,
Ora yol tapıb düşməsin qübar.

Güllər içində yoxlaram səni
Gözüm üstündə saxlaram səni.
Məni boğacaq telinlə, inan
Mən bu ömrümə bağlaram səni!

## *BƏNÖVŞƏ*

Hörmət, izzət xətrinə
Gözəllərə ad oldun.
Ətirlərin içində
Ayrı ləzzət, dad oldun.

Qışa, qara, borana
Sən əzəldən yad oldun.
Baharın gəlişinə
Müjdə verdin, şad oldun.

Çiçəklərin içində
Sevdiyim çiçək oldun.
Gəlinlərin başında
Bəzəkli ləçək oldun.

Mən yanına gələndə
Baş əyirsən həmişə.
Qaynatan "Qazlıq dağı"
Mən deyiləm, bənövşə.

## *Vuran ürəkdir*

Məhəbbət ki var sönəsi deyil,
Alışsa külə döndərər səni.
Ürək də ondan dönəsi deyil,
Lap cəhənnəmə göndərər səni.

Sevincsiz ürək necə döyünər,
Şairin sözü sevgi deyilmi?
Sevgisiz nəğmə - bir yaralı quş
Dəryada üzən sərgərdan gəmi!

Ocaq qalayar sevgi ürəkdə
Elə yandırar odu görünməz.
Doymaq olarmı arzu, diləkdən,
Sevgidən yazsan mövzu tükənməz.

Yüzü ötsə də o yüzə baxmaz,
İnsana daim sevgi gərəkdir.
Ağıl versən də o sözə baxmaz,
Sevgi sinəndə vuran ürəkdir!

## *Olmayıb hələ*

Daha qəlbimdə qalmayıb dözüm,
Özüm özümdən elə qorxuram.
Səni görəndən səndədir gözüm
Sənin nəğməni sənsiz oxuram.

Sənə ümidim hələ itməyib,
Sevgi ocağın alışar bir gün.
Söz-söhbətimiz axı bitməyib,
Ulduzlarımız barışar bir gün.

İstəyim düşər yəqin qəlbinə
Ürəyimi sən alarsan ələ.
Sevginlə gələm imana, dinə
Kim can qıymaz ki, belə gözələ?!

## *İndi çağırırsan...*

Sən məni özündən yana tulladın
Yazığın gəlmədi sevən ürəyə?
Mənimlə birlikdə özün də yandın,
Cavanlıq puç oldu...
Saçlar ağardı...
İndi çağırırsan
məni köməyə?!